MahadSunnah

هيثم سرحان

الدليل على وجود الله وحكمة خلق العباد

ALLAHIN VARLIĞINA DƏLİL

VƏ QULLARIN YARADILMASINDA OLAN HİKMƏT

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Azərbaycan dili

اللغة الأذرية

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Sual: Allahın ﷻ varlığına dəlil nədir?

Qulların yaradılmasında hikmət nədir?

Allahın ﷻ varlığının dəlillərinə gəlincə, bu, düşünənlər üçün aydındır. Çox araşdırma və uzaqgörənlik tələb etmir.

Diqqət yetirdikdə görürük ki bu üç qismə bölünür

1. Fitri dəlillər.
2. Hissi dəliilər.
3. Şərii dəlillər.

- Fitri dəlillərə gəlincə, hər bir insan özü-özlüdə Rəbbi və Yaradanı olduğunu hiss edir və Ona ehtiyac duyur.

Əgər böyük bir bəlaya düşərsə, əlləri, gözləri və qəlbi səmaya yönələr və Rəbbindən kömək diləyər.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًاۚ فِطْرَتَ ٱللَّهِ ٱلَّتِي فَطَرَ ٱلنَّاسَ عَلَيْهَا﴾ [الرُّوم : ٣٠]

“Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi (şüurlu) məxluq kimi verdiyi fitrət budur”.[1]

- Hissi dəlillərə gəldikdə isə: Kainatda başverən hadisələr.

Çünki ətrafımızdakı dünyada hadisələr baş verməlidir və bu hadisələrin ilki bir şeylərin yaradılması hadisəsidir. Hər bir şeyin yaradılması, ağac, daş, bəşər, yer, göy, dənizlər, çayların və s.

Əgər deyilsə ki, bu və digər çoxlu şeyləri kim yaradıb,kim bərqərar edib, kim təkmilləşdirib, kim yaşamasını təmin edib?

Cavab belədir:

- Ya təsadüfən heç bir səbəb olmadan belə tapılıb. Onda heç kim bu şeylərin necə yarandığını bilməyəcək.
- Ya bu şeylər hamısı öz-özünü yaradıb öz işlərini idarə edir.
- Ya da onları var edən Mucid və yaradan Xaliq var.

[1] ər-Rum surəsi, 30-cu ayə

Bu üç ehtimalı nəzərdən keçirərkən birinci və ikincinin qeyri-mümkün olduğunu görürük.

Birinci və ikinci mümkün deyilsə, üçüncü açıq-aydın doğru olmalıdır.

Onları yaradan Xaliq var, o da Allahdır ﷻ.

Onlara lazım olan və sağ qalmasını təmin edən hər şeyi verən pak və müqəddəs olan Allahdır ﷻ .

Allahın ﷻ kəlamında da məhz belə deyilmişdir:

قال تعالى: ﴿أَمۡ خُلِقُواْ مِنۡ غَيۡرِ شَيۡءٍ أَمۡ هُمُ ٱلۡخَٰلِقُونَ ۝٣٥ أَمۡ خَلَقُواْ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَۚ بَل لَّا يُوقِنُونَ ۝٣٦﴾ [الطُّور : ٣٥ - ٣٦]

“Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır? Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar”.[2]

- Şərii dəlillərə gəlincə, bu, şəriətlərin mövcudluğudur.

İbn Useymin (Allah ona rəhmət etsin) belə buyurub:

[2] ət-Tur surəsi, 35-36-cı ayə

“Bütün şəriətlər (dinlər) Yaradanın varlığına, Onun elminin, hikmətinin və mərhəmətinin kamilliyinə dəlalət edir. Çünki bu şəriətləri təyin edən olmalıdır. Şəriət təyin edən də Allahdır ﷻ ”.[3]

Bəs Allah ﷻ bizi niyə yaratdı?

Cavab: O, bizi Ona ibadət etmək, Ona şükür etmək, Onu zikr etmək və Onun bizə əmr etdiklərini yerinə yetirmək üçün yaratmışdır.

Bunu da, hər kəsə doğru yolu izah etdikdən sonra etmişdir.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿وَمَا خَلَقْتُ ٱلْجِنَّ وَٱلْإِنسَ إِلَّا لِيَعْبُدُونِ ۝٥٦﴾ [الذَّارِيَات : ٥٦]

“Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım”.[4]

[3] Şərhu Əqidətus-Səfəraniyyə
[4] əz-Zəriyət surəsi, 56-cı ayə